

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 76 (23.238)

*25 aprel 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak etmək üçün aprelin 24-də bu ölkəyə işgüzar səfərə gəlib.

* * *

Həmin gün Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü olub.

Söhbət zamanı infrastruktur, logistika, energetika, turizm, kənd təsərrüfatı, investisiya, informasiya-kommunikasiya texnologiyaları, təhsil və humanitar sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

* * *

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yanla görüşüb.



## Azərbaycanın Naxçıvan və Bolqarıstanın Veliko Tırnovo şəhərləri qardaşlaşıb






Aprelin 18-də Naxçıvan Şəhər İcra Hakimiyyəti ilə Bolqarıstanın tarixi və mənəvi paytaxtı olan Veliko Tırnovo Şəhər Bələdiyyəsi arasında əməkdaşlıq və qardaşlaşma münasibətlərinin qurulması haqqında saziş imzalanmışdır. Sazişə əsasən Naxçıvan şəhəri ilə Veliko Tırnovo qardaşlaşmış şəhər elan olunmuşdur.

Azərbaycanın Bolqarıstandakı səfiri xanım Nərgiz Qurbanova Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi münasibətilə Veliko Tırnovo şəhərində təşkil olunmuş "Azərbaycanın inciləri" adlı fotosərginin açılışında iştirak edib. Azərbaycanın Bolqarıstandakı səfirliyi və şəhər bələdiyyəsinin birgə təşkilatçılığı ilə keçirilən sərgidə paytaxt Bakı və Naxçıvan şəhərlərinin tarixini, mədəniyyət və turizm potensialını əks etdirən fotolar nümayiş olunub.

Nərgiz Qurbanova çıxış edərək deyib ki, 95 illik yubileyini qeyd edən Naxçıvan Muxtar Respublikasının paytaxtı qədim Naxçıvan şəhəri ilə qardaşlaşmış Veliko Tırnovo şəhərində sərginin təşkili rəmzi məna daşıyır. Naxçıvan şəhəri dünyada ilk insan məskənlərindəndir. Tarixi qaynaqlara görə, şəhərin adı Nuh Peyğəmbərlə bağlı olub "Nuhçuvan" – "Nuh tərəfdarlarının məskəni", "Nuhun diyarı" mənasını ifadə edir. Nuh Peyğəmbərin qəbri də məhz Naxçıvan şəhərində yerləşir. Naxçıvan ərazisindəki arxeoloji qazıntılar zamanı əldə olunan materiallar, məşhur Gəmiqaya qayaüstü yazıları və bu ərazidəki digər abidələr Naxçıvan şəhərinin 5 min ildən çox yaşı olduğunu sübut edir. Naxçıvan ümumbəşəri mənəvi sərvətlər xəzinəsinə əvəzsiz töhfələr bəxş edib. YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin ötən il keçirilmiş 13-cü sessiyasında "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin Təcili Qorunma Siyahısına daxil edilməsi bunu bir daha təsdiq edir.

Səfər çərçivəsində Nərgiz Qurbanova Veliko Tırnovo vilayətinin qubernatoru Lubomira Popova, Veliko Tırnovo şəhərinin meri Daniel Panov və Veliko Tırnovo Universitetinin rektoru Xristo Bondjolov ilə görüşlər keçirmiş, Bakı Slavyan Universiteti ilə Veliko Tırnovo Universiteti arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır. Mətbuat konfransında iştirak edən səfir ölkələrimiz arasındakı əlaqələr və həyata keçirilən layihələr, qarşılıqlı faydalı əməkdaşlıq və yenicə qurulmuş Naxçıvan – Veliko Tırnovo əlaqələrinin əhəmiyyəti barədə danışmış, jurnalistlərin suallarını cavablandırmışdır.

**AZƏRTAC**
***24 aprel 2019-cu il***
***Veliko Tırnovo, Bolqarıstan***

## Sərəncamın icrası ilə əlaqədar tədbirlər keçirilib





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının I və III kurs tələbələrinin iştirakı ilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq Ali Məclis Sədrinin hamiliklə bağlı imzaladığı sərəncamların əhəmiyyətindən, eləcə də 2019-cu il 3 aprel tarixli Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görüləcək işlərdən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Təşkilat-analitik şöbəsinin rəisi, ədliyyə müşaviri Pərviz Zülfüqarov çıxış edərək bildirib ki, gənclərin dövrümüzlə uzlaşan yeni biliklərinin, onlara məxsus innovativ ideyaların istehsalatda geniş tətbiqi qabaqcıl ölkələrin həm iqtisadi, həm də siyasi maraqları ilə üst-üstə düşür. Qeyd olunub ki, bununla bağlı 2019-cu il aprel ayının 15-də keçirilən müşavirədə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin (startapların) həyata keçirilməsi, hami təşkilatlar tərəfindən layihələri dəyərləndirəcək ekspert qruplarını yaradılması, startapların qəbulu və təqdimatlarının keçirilməsi kimi qarşıya mühüm vəzifələr qoyulub. Sərəncamın icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda da ekspert qrupu yaradılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat şöbəsinin rəisi, ədliyyə müşaviri Faiq Səfərov və Naxçıvan Muxtar Respublikası prokurorunun Beynəlxalq əlaqələr üzrə köməkçisi, kiçik ədliyyə müşaviri Emil Abdullayev çıxış edərək prokurorluq orqanlarının fəaliyyət istiqamətləri, bu istiqamətlər üzrə həyata keçiriləcək startap layihələrinin önəmindən, cəmiyyətə faydasından söhbət açıblar.

Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru Qəhrəman Behbudov çıxışında belə tədbirlərin əhəmiyyətini vurğulayıb.

Sonra tələbələr istintaq hərəkətlərinin aparılmasından və startap layihələrindən bəhs edən slayda baxıblar, onların "İdeyadan başlanğıca" devizi altında irəli sürdükləri layihələr dinlənilib. Həmçinin tələbələr Naxçıvan Muxtar Respublikası Prokurorluğunun İmtahan-informasiya sistemi ilə tanış olublar, kriminalistik avtomaşının iş prinsipini öyrəniblər.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində "Gömrük xidmətinin təkmilləşməsi və iş prosesinin sürətlənməsində avtomatlaşmanın rolu" mövzusunda praktik seminar keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə keçirilən tədbirdə Naxçıvan Dövlət Universitetinin hamiliyə verilmiş Dünya iqtisadiyyatı ixtisasının tələbələri iştirak ediblər.

Komitənin İnnovasiya Mərkəzinin rəhbəri, Gömrük əməliyyatlarının və risklərin idarəedilməsi bölməsinin rəisi, gömrük xidməti mayoru İsmayıl Məmmədov yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən startap layihələri barədə məlumat verib. Slaydlar vasitəsilə startapçılıq üçün tələb olunan keyfiyyətlər sadalanıb, muxtar respublikamızda bu istiqamətdə əlverişli mühitin formalaşdırıldığı önə çəkilib.

Texnoloji innovasiyalar və statistika bölməsinin rəisi, gömrük xidməti mayoru Emin Eylazov informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin gömrük xidmətinin inkişafında rolundan danışaraq bu sahədə tətbiq olunan innovativ layihələr barədə məlumat verib. Qeyd olunub ki, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi gömrük prosedurlarının sadələşdirilməsinə və ticarətin asanlaşdırılmasına yol açıb.

Dövlət Gömrük Komitəsi tərəfindən hamiliklə bağlı görüləcək işlər barədə məlumat verən komitənin hüquqşünası, gömrük xidməti mayoru Vüsal Həsənov gömrük sistemində startap layihələrin həyata keçirilməsi üçün əlverişli mühitin formalaşdırılması və uğurlu layihələrin dəstəklənməsi istiqamətində tədbirlər planının hazırlandığını deyib. Qeyd olunub ki, layihə müəllifi olan tələbələrin gömrük orqanlarında "Könüllü gömrükçü" kimi işləməsinə şərait yaradılması, uğurlu startap layihələrin investorlara təqdim edilməsinə köməklik göstərilməsi, investor və startapçı münasibətlərinin qurulmasında əlaqələndirici qismində iştirak kimi məsələlər də nəzərdə tutulub.

Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin dekanı, dosent Əşrəf Ələkbərov müvafiq sərəncamın icrasını təmin etmək məqsədilə təsdiq olunmuş tədbirlər planına əsasən Naxçıvan Dövlət Universiteti tərəfindən görüləcək işlərdən danışıb. Qeyd olunub ki, İnnovasiya laboratoriyasının qurulması tələbələr üçün səmərəli innovasiya mühitinin formalaşması və innovativ təkliflərin həyata keçirilməsi üçün əlverişli şərait yaradıb.

Praktik seminardan sonra tələbələr komitənin Hədəf Mərkəzi ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

*Oxunması zəruri olan kitablar*

# Maarifçilik hərəkatının işığında



Məlum olduğu kimi, Azərbaycanda milli elmi-pedaqoji fikir çoxəsrlik inkişaf yolu keçərək təkmilləşmiş və mərhələ-mərhələ yetkinləşərək bizim günlərə qədər gəlib çatmış, daha böyük gələcəyə doğru istiqamət almışdır. Qədim dövrün və orta əsrlərin klassik Şərq-müsəlman dini-fəlsəfi və poetik düşüncəsi milli ictimai-estetik baxışlar sisteminin möhkəm bünövrəsi və dayanıqlı təməlləri funksiyasını həyata keçirmişdir. Azərbaycan maarifçilik hərəkatı məhz həmin çoxəsrlik siyasi-ideoloji və ədəbi-fəlsəfi təlimlər üzərində formalaşaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Fikrimizcə, Azərbaycanın tarixi taleyində olduğu kimi, yeni dövr və müstəqillik dövrü inkişafında da klassik maarifçilik hərəkatı dalğasının böyük hərəkətverici rolu olmuşdur. Çünki XIX-XX əsrlərin meydana çıxardığı bütün axınların və cərəyanların içərisində ən uzunömürlüsü olan maarifçilik hərəkatı xalqımızın zamandan-zamana inkişafında davamlı rol oynamış, hər tarixi mərhələnin müasirləşmə və yeniləşmə proseslərində həlledici əhəmiyyətə malik olması ilə səciyyələnmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun 2019-cu il üzrə Tədbirlər Planına əsasən nəşr edilmiş “Pedaqoji fikir tarixindən” adlı kitab möhkəm klassik tarixi-ədəbi təməllər üzərində formalaşdırılaraq inkişaf etdirilən XIX əsr və XX əsrin əvvəllərinin maarifçilik hərəkatı dalğasının ölkəmizin və xalqımızın taleyində oynadığı müstəsna missiyanı bütün reallıqları və obyektiv gedişatı ilə əks etdirən qiymətli materiallar məcmuəsidir. Bu, indiyədək hər hansı bir sənətkar və ya maarif xadimi, yaxud ictimai-siyasi hadisə haqqında ayrı-ayrılıqda bəhs edilən problemləri tam halda, sistemli şəkildə əks etdirən əhəmiyyətli elmi-publisist icmallar məcmusu olan ümumiləşdirilmiş ciddi tədqiqat əsəridir. Böyük bir hissəsini tanınmış publisist-politoloq Reyhan Mirzəzadənin təqdim etdiyi “Pedaqoji fikir tarixindən” adlanan elmi-publisist əsərlər XIX əsrin ikinci yarısı və XX əsrin əvvəlləri Rusiya və Azərbaycan maarifçi və ədəbi hərəkatının real gedişatını və inkişaf templərini əks etdirən zəngin materiallar toplusudur. Bu, xalqımızın və ölkəmizin tarixi taleyində böyük rolu olmuş klassik maarifçilik hərəkatının qızıl fondunu təşkil edən ümummilli ideallara geniş elmi baxışı mənalandıran dəyərli kitabdır. “Pedaqoji fikir tarixindən” adlanan kitabda həm görkəmli dövlət xadimlərinin, həm də böyük məktəb yaratmış klassik pedaqoqların, həmçinin Azərbaycan və rus yazıçılarının məktəb, təhsil, tərbiyə, dil, ədəbiyyat, mənəviyyatla əlaqədar baxışları sistemli şəkildə şərh edilmişdir. Kitab xalqımızın tarixi taleyində xüsusi rolu olmuş klassik maarifçilik hərəkatı ənənələrinə həm dövlətçilik baxımından olan münasibəti, həm də elmi-ədəbi cəhətdən dəyərləndirmələri özündə əks etdirir. Azərbaycan maarifçi-ədəbi fikrinin qiymətli səhifələrini və hikmətlər xəzinəsini oxuculara təqdim edən “Pedaqoji fikir tarixindən” kitabı, eyni zamanda Azərbaycan-Amerika və Azərbaycan-Rusiya maarifçi-pedaqoji əlaqələrini də yeni materiallarla zənginləşdirən mühüm mənbə kimi əhəmiyyətlidir. Bundan başqa, “Pedaqoji fikir tarixindən” adlı kitabda verilmiş materiallar Azərbaycan maarifçi fikrinin ümumdünya pedaqoji ideyaları ilə yüksək şəkildə səsləşdiyini, harmoniya təşkil etdiyini də nəzərə çarpdırır. Kitabda Amerika və Rusiya maarifçilik hərəkatından Azərbaycan ədəbi-pedaqoji fikrinin təqdimatına keçid o qədər tarazlaşdırılmış şəkildə qurulmuşdur ki, burada oxucu fərqli mədəniyyətlər arasındakı daxili-məntiqi bağlılığın, qarşılıqlı bir sistemin olduğunu görə bilir.

“Pedaqoji fikir tarixindən” kitabının ilk səhifəsində verilmiş “ABŞ-ın 16-cı Prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktub” maarifçilik baxımından ayrılıqda mühüm əhəmiyyət kəsb etməklə bərabər, bütövlükdə, oxuculara təqdim olunan ədəbi-pedaqoji və dialektik materialların dərinmənalı bir epiqrafı təəssüratı yaradır. Cəmi bir vərəqlik məktub 286 səhifədən ibarət olan bir kitabın mükəmməl bir müqəddiməsidir. Eyni zamanda Avraam Linkolnun məktubu müasir gənclik üçün ibrətamiz bir kitabdır: “Hörmətli müəllim! … Ona (oğluna – İ.H.) öyrədin ki, qazanılan bir dollar tapılan beş dollardan daha dəyərlidir… Əgər bacara bilsəniz, ona kitabların möcüzəli bir nemət olduğunu öyrədin… Öyrənsin ki, məktəbdə səhv etmək hiylə gəlməkdən daha şərəfidir… Öz fikirlərinə inanmağı, nəzakətli insanlara qarşı nəzakətli, kobudlara qarşı kobud olmağı öyrədin. Hamı bir-birinə yapışıb gedəndə kütləyə qoşulmayıb öz yolu ilə getmə gücü verin oğluma… Bacarsanız, kədərləndiyi zaman belə, necə gülə biləcəyini öyrədin ona… Əgər özünün haqlı olduğuna inanırsa, dimdik ayaqda qalıb mübarizə aparmağı öyrədin ona. …Qoyun səbirsiz olacaq qədər cəsarətə sahib olsun və qoyun cəsur olacaq qədər də səbirli olsun. Ona həmişə özünə inanmağı öyrədin. Bu yolla onun bəşəriyyətə inamı daimi olacaq”.

Kitabda dünyanın müxtəlif ölkələrinin görkəmli dövlət xadimlərinin, böyük yazıçıların və maarifçilərinin seçilmiş fikirlərinin aforizmlər səviyyəsində diqqətə çatdırılması Amerika Prezidentinin müdriklik dərslərini tamamlayır və daha da möhkəmləndirir. Türkiyə Cümhuriyyətinin qurucusu, görkəmli dövlət xadimi Mustafa Kamal Atatürkün “Milləti yalnız və yalnız müəllimləri xilas edə bilər”, böyük hind yazıçısı, Nobel mükafatı laureatı Robindranat Taqorun “Təhsil bizim bütün çətinliklərimizin aradan qaldırılması üçün ən yaxşı vasitədir”, rus ədəbiyyatının klassiki Maksim Qorkinin “İnsanın azadlığa olan cəhdini intizamla birləşdirmək – budur əsas məsələ”, məşhur rus maarifçisi Konstantin Uşinskinin “Əgər tərbiyə insanı xoşbəxt etmək istəyirsə, onu xoşbəxtlik üçün tərbiyə etməli” və sair kimi fikirləri təkcə ayrı-ayrı mövzular üzrə irəli sürülən tezisləri deyil, bütövlükdə, “Pedaqoji fikir tarixindən” kitabının və həmin kitabı nəşr edənlərin cəmiyyətə çatdırmaq istədikləri ideyaları bütün dolğunluğu ilə ifadə edir.

“Pedaqoji fikir tarixindən” kitabında görkəmli rus pedaqoqu, “Rusiya xalq məktəbi və elmi pedaqogikanın banisi” Konstantin Uşinskinin, Zaqafqaziyada pedaqoji fikrin inkişafında görkəmli yer tutan Aleksey Çernyayevskinin, “Hər uşaq bir dünyadır”, – deyən mahir pedaqoq Vasili Suxomlinskinin, istedadlı və fədakar tərbiyəçi Anton Makarenkonun həyatına və pedaqoji fəaliyyətlərinə, maarifçilik baxışlarına həsr olunmuş tədqiqatlar məktəb və təhsil, təlim və tərbiyə işinin nəzəriyyəsini və təcrübəsini bütün mahiyyəti və əsas konturları etibarilə meydana qoyur. Zəngin ədəbi-tarixi materiallar, dərin və əsaslı təhlil əsasında yazılmış “Uşinskinin, Çernyayevskinin, Suxomlinskinin əziz xatirəsinə” və “Pedaqogikada misligörünməmiş təcrübə” fəsilləri klassik maarifçiliyin gedişatının müasirlik işığında şərhini verən, ciddi elmi əhəmiyyətə malik olan qiymətli pedaqoji traktatlardır. Tanınmış publisist-politoloq Reyhan Mirzəzadənin təqdimatında böyük rus maarifçilərinin yığcam tərcümeyi-halları ilə birlikdə həm də konkret istiqamətlər üzrə səmərəli fəaliyyətləri, habelə pedaqoji ideyaları sistemli şəkildə oxuculara çatdırılır. Bir qədər publisist çalarları olan bu tədqiqatlar klassik rus maarifçi fikrinin tarixi oçerkləridir. Reyhan Mirzəzadənin təqdimatında ensiklopedik biliyə malik olan Konstantin Uşinskinin xalq pedaqogikasının əsaslarına çevrilən pedaqogika nəzəriyyəçiliyi və ilk dərsliklərin yaradılmasındakı xidmətləri, “Ürəyimi uşaqlara verirəm” kitabının müəllifi, Sosialist Əməyi Qəhrəmanı Vasili Suxomlinskinin əmək tərbiyəsi sahəsindəki fədakar xidmətləri, Anton Makarenkonun çətin tərbiyə olunan uşaqlarla işin metodikasına dair baxışları və həmin istiqamətdəki ibrətamiz işləri sanki oxunaqlı bir povest qədər təsirli şəkildə nəzərə çatdırılır. Bütün məqamlarda rus məktəb və pedaqogikasına həsr olunmuş materialların Azərbaycan maarifçilik hərəkatı ilə əlaqəli şəkildə təqdim olunması bu fonda milli pedaqoji mühitin aparıcı simalarının çoxcəhətli və fədakar fəaliyyətlərinin müqayisəli şəkildə təhlil edilib dəyərləndirilməsinə münbit şərait yaradır. Xüsusən Aleksey Osipoviç Çernyayevskidən bəhs edilərkən məşhur Qori Müəllimlər Seminariyasının görkəmli azərbaycanlı yetirmələrindən də geniş söz açılması ölkəmizin maarifçi mühitinin miqyasını təsəvvür etməyə işıq salır.

Böyük yazıçı Maksim Qorkinin ədəbi irsindən mütaliə ilə əlaqədar məqamların seçilib kitaba daxil edilməsi təkcə rus ədəbiyyatını və maarifçi əsərlərini deyil, ümumiyyətlə, oxumaq mədəniyyətinə yiyələnməyi təşviq edən çağırışlar kimi səslənir: “Bilik mənbəyi olan kitabı sevin, ancaq bilik bizi mənəviyyatca qüvvətli, namuslu, zəkalı adamlar, insanı səmimi surətdə sevməyi, onun əməyinə hörmət etməyi və onun fasiləsiz davam edən böyük əməyinin gözəl bəhrələrinə ürəkdən məftun olmağı bacaran adamlar edə bilər”. Maksim Qorkinin özündən sonrakı nəsillərin həyatında mühüm rol oynamış bu sözləri “Pedaqoji fikir tarixi”ndən bizim günlərə, hətta sabahkı gəncliyə də ərməğan edilən müdrik mesajlardır.

“Pedaqoji fikir tarixindən” kitabında Azərbaycan ədəbiyyatından və maarifçi fikrindən də çox qiymətli, ibrətamiz örnəklər seçilib oxuculara təqdim olunur. Bu, ilk növbədə, Azərbaycan maarifçi ədəbiyyatının hikmət xəzinəsini yeni nəsillərin üzünə açmağa xidmət edir. İkincisi, təqdim edilən bədii ədəbiyyat nümunələri, sadəcə, oxu materialı kimi yox, həm də tərbiyəvi dərslər səviyyəsində diqqətə çatdırılır. Üçüncüsü isə Azərbaycan ədəbiyyatı klassiklərindən seçilib kitaba daxil edilmiş şeirlər və məqalələr milli maarifçi fikrin konkret tarixi şəraitdəki inkişaf səviyyəsini, Rusiya maarifçiliyi ilə müqayisədəki yerini və əhəmiyyətini müəyyən etməyə imkan yaradır. Bütün bunlar isə, öz növbəsində, ədəbi-pedaqoji fikir tarixində Azərbaycan ziyalılığının yerini və miqyasını görməyə və göstərməyə əsas verir. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin “Maarif” adlı məqaləsindəki “məhz acı həqiqəti meydana qoymaqla biz maarif evini abad edə bilərik” sözləri “Pedaqoji fikir tarixindən” kitabının Azərbaycan fəsillərinin parolu kimi səslənir. Kitabda Məhəmməd Tağı Sidqinin “Nümuneyi-əxlaq”, “Töhfeyi-bənat, yaxud qızlara hədiyyə” dərsliklərindən seçilmiş sadə dildə yazılmış kiçik uşaq hekayələri cəlbedici məzmunu və anlaşıqlı ideyası ilə yeni nəsillərin qəlbinə və şüuruna təsir edə biləcək örnəklərdir. Məhəmməd Tağı Sidqinin bir qədər əvvəldə Konstantin Uşinskinin və Vasili Suxomlinskinin dərsliklərindən verilmiş maarifçi hekayələrlə səsləşən kiçik hekayələri mahiyyət etibarilə rus maarifçilərinin didaktik materiallarına bənzəsə də, Azərbaycan mühitinin koloritini, milli ruhunu ifadə etməsi ilə onlardan əsaslı surətdə fərqlənir. Məhəmməd Hinduşah Naxçıvani və Nəsirəddin Tusidən bəhs edilərkən də məsələnin həmin cəhətinə, yəni ölkə həyatına uyğunluğuna xüsusi diqqət yetirilmişdir. Bu yolla milli maarifçiliyin özünəməxsus siması və yüksək səviyyəsi, həmişə müasir səslənən çağırışları göz önünə gətirilmişdir. Məhəmməd Tağı Sidqinin XIX əsrin sonlarında Naxçıvanda “Məktəbi-Tərbiyə”nin şagirdləri üçün yazıb dərsliyə saldığı hekayədən gətirdiyimiz aşağıdakı parça müasir dövrün oxucusu üçün də eyni dərəcədə əhəmiyyətlidir: “Məktəb nədir? Məktəb bizim elm və maarifimizin vasitəsi, dünya və axirətimizin səadətinin səbəbidir. Elm və ədəb bir xəzinəyə bənzər ki, onun açarı məktəbdir. Bizləri nadanlıq zülmətindən qurtarıb nuri-mərifətə yetirən məktəbdir. ...Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır... Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir. Elmin ləzzətini anlayan şagirdə məktəb bir gülüstani-behcətdir. Amma tənbəl və qeyrətsiz uşaqlara məktəb bir zindani-əziyyətdir”.




Sadə dildə yazılmış anlaşıqlı məzmuna malik olan belə bir ibrətamiz maarifçi ideyalarına görə Məhəmməd Tağı Sidqinin “Nümuneyi-əxlaq” dərsliyi Konstantin Uşinskinin “Rodnoye slovo”, Aleksey Çernyayevskinin “Vətən dili” dərsliklərindən nəinki geri qalmır, hətta bir az da irəli gedir. Bu təkcə Məhəmməd Tağı Sidqinin yox, geniş mənada, XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan ədəbi-maarifçi fikrinin gəlib çatdığı zirvə idi. Eyni zamanda kitabda Nəriman Nərimanovdan gətirilmiş “Hər millət üçün tərəqqi qapısı məktəbdir və hər məktəbin tərəqqi tapmağı milli müəllimlərlə bağlıdır”, Hüseyn Caviddən verilmiş “Dilsiz bir millət yaşamaz, çabuq münqəriz (nəslikəsilmiş – İ.H) olur”, Həsən bəy Zərdabidən alınmış “Bir millətin ki, dili batdı, onda o millətin özü də batar” kimi maarifçi fikirlər Rusiyadakı Uşinskilərin ideyalarından heç də geridə qalan mülahizələr deyildir. Ümumiyyətlə, XIX əsrin ortalarından XX əsrin əvvəllərinə, sovet dövrünə qədərki mərhələdə Azərbaycan maarifçiliyinin gücü, enerjisi, işığı hesabına ölkəmiz və xalqımız qısa müddətdə böyük yol keçmişdir. Azərbaycanda milli maarifçiliyin bütün istiqamətlər üzrə yaranıb inkişaf etməsi, yəni ana dilində dünyəvi məktəblərin açılması, Nəriman Nərimanovun “böyüklər üçün məktəb” adlandırdığı milli teatrın yaranması və genişlənməsi, Azərbaycan mətbuatının – “Əkinçi”nin meydana çıxması, realist-demokratik ədəbiyyatın inkişafı gələcək böyük inkişafın möhkəm təməllərinin atılması ilə nəticələnmişdir. “Pedaqoji fikir tarixindən” kitabındakı Nəriman Nərimanovun “Müəllimlər ictimainə dair”, “Türk dilində yeni jurnal”, “Cümə söhbəti”, Hüseyn Cavidin “Naxçıvanda nə gördüm”, “Naxçıvana nə lazım?”, “Həsbi-hal”, Eynəli bəy Sultanovun “Zəmanə ədiblərindən nələr tələb etmək lazımdır”, “Azərbaycan atalar sözləri” məqalələrində səsləndirilən maarifçi ideyalar dövrün mühüm çağırışlarına çevrilərək yeni nəsilləri, bütövlükdə, Azərbaycan cəmiyyətini arxasınca aparmış, zamanədən geriyə qalmağa qoymamışdır. Hazırkı müstəqillik dövründə dərinləşməkdə və genişlənməkdə davam edən milli-mənəvi özünüdərk proseslərində də klassik maarifçilik bir daha ictimai-mədəni mühitin carçısına çevrilərək cəmiyyətdə gedən proseslərə təkan verir. Bu cəhətdən “Pedaqoji fikir tarixindən” kitabının hazırlanıb nəşr edilməsi son dərəcə aktual və əhəmiyyətlidir.

Oxuculara təqdim edilən “Pedaqoji fikir tarixindən” kitabı XX əsrin Azərbaycançılıq ideyalarının müasirlərimizə çatdırılması ilə tamamlanır. Məhəmməd ağa Şahtaxtlının kitaba daxil edilmiş “Müsəlmanlarda məktəb həyatı” məqalələr silsiləsi dünyəvi məktəbin, milli maarifçiliyin və Azərbaycançılıq ideyalarının mükəmməl əks-sədasıdır. Məmməd Səid Ordubadinin “Ana dili” məqaləsi kitab boyu izlənilən milli-mənəvi oyanış və özünüdərk ideyasının düşünülmüş finalıdır.

Bütün bunlara görə “Pedaqoji fikir tarixindən” kitabı milli ədəbi-tarixi köklərdən və ənənələrdən müasir dövrə çağırış kimi səslənir.

Azərbaycan ədəbi-pedaqoji fikrindən örnəklərin şərhsiz, təhlilsiz verilməsi oxucudan milli maarifçiliyimizin miqyası və çağırışları haqqında müstəqil qərar qəbul etməyi və sərbəst nəticələr çıxarmağı tələb edir.

**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik*

*“525-ci qəzet”*
*24 aprel 2019-cu il*

***Müasir Azərbaycan iqtisadiyyatında mühüm rola malik olan sahibkarlığın formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimizin müstəqil ölkəmizə rəhbərliyinin ilk illərindən həyata keçirdiyi inkişaf strategiyası Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasına və iqtisadi islahatların uğurla həyata keçirilməsinə etibarlı zəmin yaratmışdır. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur", – deyən ümummilli liderin rəhbərliyi altında digər sahələrdə olduğu kimi, sahibkarlığın formalaşması və inkişafı, eləcə də bu sahəni tənzimləyən qanunvericilik bazasının yaradılması istiqamətində də mühüm işlər görülmüşdür.***

## 25 aprel Sahibkarlar Günüdür

# Sahibkarlıq dayanıqlı iqtisadi inkişafın əsasıdır

Ulu öndərin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də sahibkarlığın inkişafını prioritet məsələyə çevirmişdir. Dövlət başçısının 2016-cı il 21 aprel tarixli Sərəncamına əsasən hər il aprelin 25-nin Azərbaycanda "Sahibkarlar Günü" kimi qeyd edilməsi də bu sahəyə göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Bu gün ölkəmizdə həyata keçirilən layihələrin uğur qazanmasında sahibkarların böyük rolu vardır. Belə ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının icrası ilə əlaqədar özəl sektor qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi bir sıra istiqamətlərdə rəqabətqabiliyyətli istehsal və xidmət sahələrinin yaradılmasına imkan vermişdir. Bu inkişaf strategiyasının muxtar respublikamızda da uğurla davam etdirilməsi müasir və güclü infrastrukturun qurulmasına, özəl sektorun inkişafına, bu istiqamətdə bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsinə, biznes fəaliyyəti üçün daha əlverişli mühitin yaradılmasına, yeni müəssisələrin qurulmasına, iş yerlərinin açılmasına zəmin yaratmışdır. İstər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə sahibkarlığın inkişafı istiqamətində ardıcıl və sistemli tədbirlər görülmüş, sahibkarlıq subyektlərinə səmərəli maliyyə dəstəyinin göstərilməsi mexanizmi formalaşdırılmışdır.

Müasir dövr muxtar respublika iqtisadiyyatında özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın rolunun daha da güclənməsi ilə xarakterizə olunur. Ailə təsərrüfatlarının inkişaf etdirilib, onların kiçik biznes subyektinə çevrilməsi üçün həyata keçirilən dəstəkləyici tədbirlər, bu mənada, sahibkarlığın da genişləndirilməsi üçün əlverişli imkanlar yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Sahibkarlığın inkişafının bir yolu da ailə təsərrüfatlarının fəaliyyətini dəstəkləməkdən keçir. Çünki ailə təsərrüfatları həm yerli istehsalın həcminin artmasına və özünüməşğulluğun təmin olunmasına, həm də kiçik və orta sahibkarlığın inkişafına böyük təkan verir".***





2019-cu il muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunmuş, bu sahənin inkişafı ilə bağlı Tədbirlər Planı təsdiq edilmişdir. Təsərrüfat subyektlərinə kredit dəstəyinin göstərilməsi də bu vacib sahənin inkişafına diqqətdən xəbər verir. Belə ki, 2018-ci ildə 14 ailə təsərrüfatına 253 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmişdir.

Özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafı biznes mühitinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılmasının göstəricisi olmaqla, bu sahədə həyata keçirilən uzunmüddətli işlərin nəticəsidir. Sahibkarlara maliyyə dəstəyi göstərmək məqsədilə muxtar respublikanın İqtisadiyyat Nazirliyinin nəzdində Sahibkarlığın İnkişafı Fondu yaradılmışdır. Fond tərəfindən bu günə qədər 1271 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 142 milyon 313 min manatdan çox kreditlər ayrılmış, həmin vəsait sənaye, xidmət və kənd təsərrüfatı təyinatlı müəssisələrin yaradılmasında istifadə olunmuşdur.

Naxçıvanda sahibkarlığın fəaliyyət istiqamətləri kifayət qədər çoxşaxəlidir. Hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. Sənaye sahəsində məhsul istehsalının 94 faizi, tikintidə görülən işlərin və nəqliyyat xidmətinin 78 faizi, rabitə xidmətinin 82 faizi, kənd təsərrüfatı, ticarət və ictimai iaşə xidmətlərinin isə 100 faizi özəl bölmənin payına düşür ki, bu da çox yüksək göstəricilərdir. Təkcə son beş ildə muxtar respublikada yeyinti, yüngül, mebel, metallurgiya, kimya, tikinti olmaqla, 84 sənaye təyinatlı müəssisənin istifadəyə verilməsi, 270 heyvandarlıq, 84 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 111 arıçılıq, 74 bağçılıq və 14 balıqçılıq təsərrüfatının yaradılması nəticəsində məşğulluq səviyyəsi yüksəlmiş, ixracın həcmi artmışdır. Son illərdə rayon və kəndlərdə 750 kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələrinin yaradılması yerli resurslardan səmərəli istifadəni və məşğulluq səviyyəsinin yüksəldilməsini təmin etmişdir.

Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin xarici əlaqələrinin inkişaf etdirilməsi, istehsal olunan məhsulların ixrac imkanlarının artırılmasını təmin edir. Dövlət dəstəyi ilə son illərdə 50-dən artıq ölkədə keçirilən 321 müxtəlif tədbirdə 1722 sahibkarın iştirakının təmin edilməsi, 8 ixrac missiyasında, 7 beynəlxalq sərgidə vahid ölkə stendi ilə muxtar respublika sahibkarlarının təmsil olunması yerli şirkətlərin biznes əlaqələrinin inkişafına, beynəlxalq təcrübənin öyrənilməsinə və ixracın artmasına əlverişli şərait yaratmışdır. Bütün bu tədbirlər, son nəticədə, məhsul istehsalının və ixracın həcminin artmasına səbəb olmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikasının dünyanın 60-a yaxın ölkəsi ilə ticarət əlaqələri vardır. Sahibkarlığın inkişafına dövlətin dəstəklənməsinin və yaradılan şəraitin nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu "Caspian European Club" tərəfindən hazırlanan investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ölkəmizin regionları arasında 2017-ci və 2018-ci illərin nəticələrinə görə lider olmuşdur.



Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, mövcud olanların fəaliyyəti bərpa edilir.

Son illərdə 442 sənaye müəssisəsinin yaradılması, bu müəssisələrdə 383 növdə məhsulun istehsal olunması, 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi sahibkarlığın inkişafının nəticəsidir. Muxtar respublikada sahibkarlara yaradılan şəraitdən istifadə edərək öz biznesini genişləndirən, yeni istehsal müəssisələri, iş yerləri yaradan, istehsal etdiyi məhsullarla ölkəmizi xaricdə layiqincə tanıdan, ümumilikdə, iqtisadi inkişafımıza, xüsusən də özəl sektorun inkişafına töhfə verən belə sahibkarlıq subyektlərinin sayı ilbəil artmaqdadır.

Muxtar respublikamızda sahibkarlıq fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması, onların hüquqlarının müdafiəsi də diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 30 sentyabr tarixli Fərmanına müvafiq olaraq bu sahədə ardıcıl tədbirlər görülür. Ötən dövrdə muxtar respublikada 4294 sahibkarlıq subyekti nəzarət kitabçası ilə təmin edilmiş, İqtisadiyyat Nazirliyində yaradılmış "Qaynar xətt" vasitəsilə sahibkarlıq subyektləri ilə maarifləndirmə işləri aparılmışdır.

İnvestisiya təşviqi sənədi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına və stimullaşdırılmasına nail olmaq məqsədi daşıyır. Belə ki, artıq muxtar respublikada investisiya təşviqi sənədinin tətbiqinə başlanmış, ötən dövrdə 11 milyon 376 min manat dəyərində 5 layihə üzrə investisiya təşviqi və təsdiqedici sənədinin verilməsi, 21 halda ixrac əməliyyatı üzrə 63 min manatdan çox məbləğdə ixrac təşviqinin ödənilməsi ixracyönümlü məhsulların istehsalının dəstəklənməsinə, investisiyaların cəlb edilməsinin stimullaşdırılmasına öz töhfəsini vermişdir.

Sahibkarlığın inkişaf etdirilməsi, dövlətin sahibkara, iş adamına sahib çıxması iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə xidmət edir. Bu səbəbdən də yaradılan şəraitdən və göstərilən dövlət dəstəyindən səmərəli istifadə etmək, muxtar respublika iqtisadiyyatının inkişafına töhfə vermək sahibkarların qarşısında duran əsas vəzifədir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



# Fizika-Riyaziyyat Təmayüllü Lisey böyük uğurlara imza atacaq

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkənin hərtərəfli tərəqqisində, uğurlar qazanılmasında təhsilin xüsusi rolunu həmişə vurğulamış, onu yüksək dəyərləndirmişdir. Ulu öndərimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də təhsilin inkişafına böyük qayğı ilə yanaşmış, ölkəmizdə təhsilin prioritet sahə olduğunu dəfələrlə bəyan etmişdir. Yeni məktəb binalarının tikilməsi, müasir universitet şəhərciklərinin, peşə və orta ixtisas məktəbləri üçün tədris korpuslarının istifadəyə verilməsi gənclərin keyfiyyətli təhsili üçün hərtərəfli şərait yaratmışdır.

Bu gün muxtar respublika gəncləri ən qabaqcıl informasiya texnologiyalarından, distant təhsil imkanlarından istifadə edirlər. İstər Naxçıvan şəhərində, istərsə də ən ucqar dağ və sərhəd kəndlərində şagirdlərin istifadəsinə müasir tədris avadanlıqları, sürətli internetə çıxışı olan kompüterlər, elektron lövhələr, zəngin fonda malik olan kitabxanalar və idman zalları verilib.

Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, yeni sənaye və xidmət sahələrinin yaradılması, həmin sahələrdə müasir informasiya texnologiyalarının tətbiqi, xüsusən dəqiq elmlər sahəsində tədrisin səviyyəsinin yüksəldilməsini tələb edir. Bununla əlaqədar muxtar respublikamızda dəqiq elmlər sahəsi üzrə kadrların hazırlanması diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması bunun daha bir nümunəsidir. Lisey 2016-cı il 1 sentyabrın 15-də – Bilik Günündə istifadəyə verilmişdir. Məktəbin kollektivi ilə görüşündə Ali Məclisin Sədri demişdir: ***"Vətənə, xalqa xidmətin ən yaxşı yolu mükəmməl təhsil almaqdır. Hər bir gənc bilməlidir ki, o yaxşı təhsil almaqla, ilk növbədə, ölkəmizin inkişafına öz töhfəsini vermiş olur".***

Qeyd edək ki, müasir tədris şəraiti yaradılan liseyə muxtar respublikanın ayrı-ayrı rayonlarından olan istedadlı uşaqlar müsabiqə yolu ilə seçilirlər. Onlar yataqxana və yüksəkkeyfiyyətli yeməklə təmin edilirlər. Şagirdlərə burada əsas fənlərdən dərinləşdirilmiş proqramla dərslər keçilir. Liseydə uşaqların yüksək hazırlıq səviyyəsini təmin etmək üçün müasir maddi-texniki baza mövcuddur. Burada interaktiv dərslər yüksək texnologiyaların tətbiqi ilə həyata keçirilir. Dərslərində xüsusi fərqlənən və istedadı ilə seçilən məktəblilər muxtar respublika və ölkə səviyyəli olimpiadalara hazırlaşdırılırlar.

Zirzəmi qatı ilə birlikdə beş mərtəbədən ibarət olan lisey tədris və yataqxana korpuslarından ibarətdir. 380 yerlik tədris korpusunun 5-i elektron lövhəli olmaqla, 19 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat, iki kompüter, müəllimlər otağı, 55 yerlik akt zalı, kitabxana, arxiv və bufeti vardır. Liseydə internetlə bağlantısı olan 42 kompüter quraşdırılmış, kitabxanada 4 min 184-ü dərslik, 2 min 65-i bədii ədəbiyyat olmaqla, 6 min 249 kitab, 2 mindən artıq elektron dərslik mövcuddur. Şagirdlərə elektron lövhələr vasitəsilə muxtar respublikanın müxtəlif muzeylərindən birbaşa yayımlanan interaktiv dərsləri izləmək imkanı yaradılmışdır.

Təhsil müəssisəsinin 273 yerlik yataqxanasında 5 və 3 yerlik 87 yataq otağı, növbətçi, nəzarətçi və istirahət, həkim və müayinə otaqları, idman zalı, yeməkxana, mətbəx, ərzaq anbarları, bərbərxana, təsərrüfat otağı və camaşırxana vardır. Otaqlar zəruri mebel avadanlıqları ilə təchiz olunmuşdur. Bütün bunlar isə şagirdlərin sağlam böyümələrinə, hərtərəfli inkişafına şərait yaradan amillərdir.

Liseydə təhsil alan 229 şagirdin təlim-tərbiyəsi ilə 33 müəllim məşğul olur. Ötən tədris ilində liseyin ilk məzunları buraxılmışdır. Nəticələr də ürəkaçan olmuşdur. Belə ki, məzunların hamısı respublikanın müxtəlif ali məktəblərinə daxil olaraq tələbə adını qazanmışdır. 9 məzunun göstəricisi isə 500-700 bal intervalında olmuşdur. Məktəbi qızıl medalla bitirən Real Sərxanbəyli isə 665 balla Bakı Mühəndislik Universitetinin tələbəsi adını qazanmışdır.

Bu gün davamlı olaraq muxtar respublikada təhsil sahəsində islahatlar həyata keçirilməkdədir. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, təhsilimiz özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəkdir. Qazanılan bütün nailiyyətlər muxtar respublika rəhbərinin təhsilə verdiyi önəm və qayğıdan güc alır. İnanırıq ki, ilk iki buraxılışın sevincini yaşayan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin pedaqoji kollektivi qazanılan uğurlarla kifayətlənməyəcək, bu tədris ilində də yüksək nəticələrin əldə edilməsinə çalışacaq, gənc nəslin milli, ümumbəşəri ideyalar ruhunda tərbiyə olunması üçün yaradılmış imkanlardan maksimum istifadə edərək tədrisin kəmiyyət və keyfiyyətinin daha da yüksəldilməsinə nail olacaqdır. Dövlət qayğısı ilə əhatə olunan bu təhsil müəssisəsi gələcək illərdə böyük uğurlara imza atacaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# İncə zövqlərə inci ərməğanı *“Miraj Gold”* dadır

***Qadınlar dünyanın bəzəyi olduğu kimi, zinət əşyaları da qadınların bəzəyidir. Bu, həmişə belə olub. Gözəl zinət əşyaları xanımların diqqətini hər zaman cəlb edib, onların zövqünü oxşayıb, ruhlarını bəzəyib. Bu əşyalar kiçikölçülü olsalar da, deyirlər ki, onların yaratdığı zövq qadınlara dünyanı bəxş edir, böyük sevinc yaşadır. Hələ o zinət əşyaları brend olanda onların diqqətini daha çox cəlb edir. Çünki incəzövqlü qadınlar inci seçimində çox həssasdırlar. Onlar bu əşyaların keyfiyyəti kimi, gözəlliyinə, zərifliyinə də üstünlük verirlər. Üzərlərində gəzdirdikləri zinət əşyalarının eksklüziv olması isə qadınların tək istəkləridir.***



Bu günlərdə şəhərimizdə ötən ilin aprel ayından fəaliyyət göstərən “Miraj Gold” Məhdud Məsuliyyətli Cəmiyyətinin Heydər Əliyev prospektində yerləşən mağazasının qarşısından keçərkən bir qadın kimi burada satılan zinət əşyalarının məndə yaratdığı maraqla bir andaca mağazaya necə daxil olduğumu hiss etmədim. İşıqlı və tamamilə müasir dizaynda qurulmuş mağaza alıcılara öz məhsullarını yüksək səviyyədə təklif edir. Mağazada diqqətimi çəkən məqamlardan biri bu müasir məkanda döşəmə kimi milli xalçalarımızdan istifadə edilməsi, bir də müxtəlif kolleksiyalar arasında Naxçıvanın qədim zərgərlik üslubu əsasında hazırlanan məhsulların sıralandığı “Buta” kolleksiyası oldu. Burada bütün yaş qruplarında olan insanlar üçün nəzərdə tutulmuş və “Bone”, “Elegant”, “Bubble”, “Fashion Silver”, “Happy” və digər kolleksiyalarında Naxçıvanın “Miraggio Jewellery” brendinin bir-birindən cəlbedici zinət əşyaları göz oxşayır. Üzük, sırğa, boyunbağı, qolbaqlar, həqiqətən də, heç də qızıl bazarlarında rastlaşdığımız zinət əşyalarına bənzəmir. Diqqətlə baxanda və zövqlə yanaşdıqda bunu görmək o qədər asandır ki… Birinci zinət



əşyalarının özünəməxsusluğu, kreativliyi. İkincisi, zövqlər nəzərə alınaraq əşyaların üç rəngdə – ağ, sarı və qırmızı qızıllardan hazırlanması. Ən əsası isə keyfiyyət. Bunu hər hansı zinət əşyasını əlinə alarkən hiss edirsən. Və belə bir qənaətə gəlirsən ki, bu brend qızıl bazarlarının bir-birinə bənzər, keyfiyyətinə isə əmin olmaqda tərəddüd etdiyimiz mallarından nə qədər fərqlidir. Elə mağazada olarkən Aygün adlı xanımın sırğa almaq məqsədilə kolleksiyalarda ona təklif olunan məhsullara baxması və heyranlıqla “Nə qədər zərif və fərqlidirlər” söyləməsi mənim bayaqdan bəri bu brend haqqında düşündüklərimi bir daha təsdiq etdi. Onun “Bu məhsullar harada istehsal olunur?”, – deyə sualına satıcı Telman Novruzovun iftixarla “Naxçıvanda, yerli məhsuldur”, – cavabı ilə bir naxçıvanlı kimi mən də qürur duydum.

Mağazadan aldığım təəssürat məndə bu zinət əşyalarının istehsal prosesinə də maraq yaratdı. Yollandım “Miraj Gold” Məhdud Məsuliyyətli Cəmiyyətinə. Cəmiyyətin rəhbəri Toğrul Sadiqovla görüşdüm. Həmsöhbətimlə satış mağazasında gördüyüm zinət əşyalarının gözəlliyini, keyfiyyətini paylaşarkən onu da xüsusi vurğuladım ki, yaşadığımız dövrdə dünyanın qızıl bazarlarında rəqabətin tüğyan etdiyi bir dövrdə, blokada şəraitində yaşayan muxtar respublikamızda yaradılan bu qızıl fabriki eksklüziv məhsul istehsalı və onların keyfiyyəti ilə, sözsüz ki, rəqabətədayanıqlı bir müəssisə olacaqdır. Toğrul müəllim dedi: – Təbii ki, elə məqsədimiz də məhsullarımızın keyfiyyəti və çeşidi ilə öncüllərdən olmaqdır. Bunu bizdən muxtar respublikada bu müəssisənin belə yüksək səviyyədə təşkil olunmasına göstərilən qayğı tələb edir. Müəssisə Naxçıvanda sahibkarlığın inkişafı, istehsalçıların fəaliyyətinin stimullaşdırılması, yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilən tədbirlərin davamıdır. Fabrik muxtar respublikada zinət əşyalarına olan tələbatı daxili imkanlar hesabına ödəməyə şərait yaradacaqdır. Müəssisənin açılışı zamanı Ali Məclisin Sədri cənab Vasif Talıbovun dəyərli fikirləri kollektivimizin fəaliyyət proqramına çevrilmişdir: ***“…Muxtar respublikada əhalinin və turistlərin tələbatının artması onu deməyə əsas verir ki, zinət əşyaları bazarı da aktiv fəaliyyət göstərəcəkdir. Çünki zinət əşyaları hər bir insana, hər bir ailəyə lazım olur. Ona görə də müəssisədə keyfiyyətli və bazarın tələblərinə uyğun məhsul istehsal olunmalıdır… Muxtar respublikada vaxtilə zinət əşyaları hazırlayan ustalar olmuşdur. Lakin varislik təmin olunmadığı üçün bu sənət zamanla unudulmuşdur. Bu gün muxtar respublikada az sayda usta bu sənətlə məşğul olur. Zinət əşyaları istehsalı müəssisəsinin yaradılması, müasir avadanlıqların qurulması və mütəxəssislərin cəlb olunması həm zinət əşyalarının hazırlanması üzrə varisliyi təmin edəcək, həm də bu sənət muxtar respublikada inkişaf edəcəkdir”.***

Toğrul müəllim deyir: – Müəssisəmizdə zinət əşyaları italyan zərgərlik üslubunda hazırlanır. Bu məhsullar “Miraggio Jewellery” markası ilə təqdim olunur ki, bu da zinət əşyaları istehsalında dünyada öz sözünü demiş bir brenddir. Naxçıvan isə qədim Azərbaycan mədəniyyətinin beşiyi sayılan bir diyardır. Burada vaxtilə bütün sənət növləri inkişafın zirvəsində olub. Eləcə də zərgərlik. Naxçıvanda qədim dövrlərdə istehsal edilən zinət əşyaları bütün Şərqdə dillər əzbəri olub. Bax elə məqsədimiz də müəssisədə modern üslubda zinət əşyalarının istehsalı ilə yanaşı, həm də Naxçıvanın qədim zərgərlik sənətinin özünəməxsus ənənəvi üslubunu tətbiq edib yaşatmaq, Ali Məclis Sədrinin tövsiyəsinə əsasən varisliyi təmin etməkdir. Qeyd edim ki, elə bu yaxınlarda Naxçıvanın ən qədim zərgərlik ənənələri əsasında yeni kolleksiyanın istehsalına başlanılması nəzərdə tutulur.

Müəssisədə əritmə, rezin və mum hazırlama, saflaşdırma, metal yoxlama və laboratoriya, lazer, keyfiyyətə nəzarət və təhvil, metal hazırlama, dizayn və nümunə, atelye və daşbərkitmə bölmələri fəaliyyət göstərir. Müəssisə gün ərzində 5-10 kiloqram əlvan metalları əritmə gücünə, növündən, çəkisindən, modelindən, qiymətli daş və brilyant miqdarından asılı olaraq 500 ədəd hazır məhsul istehsalı gücünə malikdir. Burada istənilən qəlib və ölçülərdə, eləcə də dizaynda zinət əşyaları istehsal etmək mümkündür. Qızılın əridilməsi, yoxlanılması, təmizlənməsi, nümunələrin hazırlanması və son istehsal prosesinə qədər olan işlər ardıcıllıqla həyata keçirilir. Bu da müasir dövrdə zinət əşyaları istehsalı sahəsində tətbiq olunan ən son nailiyyətdir.

Müəssisənin direktoru bu barədə deyir: – Müasir dövrdə qızıl istehsalı, əsasən, sexlərdə həyata keçirilir. Bizim fabrikdə zinət əşyalarının ərsəyə gəlməsi üçün fəaliyyət göstərən bu bölmələrin hamısı onlarda yoxdur və ya belə müasir şəraitdə, yüksək səviyyədə deyil. Bu isə keyfiyyət, keyfiyyətə nəzarət məsələsini qoyur ortaya.

Toğrul müəllim zinət əşyalarından və onların istehsalından da danışır: – Müəssisədə ağ, sarı və qırmızı qızıla təbii, qiymətli, yarı qiymətli, və brilyant daşların qoyulması ilə, həmçinin 925 əyarda gümüş məhsullar istehsal olunur. Modern üslubda olan zinət əşyaları ispaniyalı dizayner Antonio Radriguezin kreativ eskizləri əsasında hazırlanır. Bu eskizlər əvvəlcə dizayn bölməsində kompüterdə 3D formatına salınır. 3D printerdə məhsul çap olunur, istehsal sexlərinə verilir. Həmin eskiz əsasında məhsul hazırlanır.

İstehsal prosesi haqqında Toğrul müəllimin söhbətini dinlədikcə məndə belə təəssürat yarandı ki, bu işləri müasir texnologiyaya bələdçiliyi olan gənc, savadlı adamlar görə bilər. Və öyrəndim ki, elə müəssisədə çalışanların hamısı gənc yaşda olanlardır. Toğrul müəllim deyir ki, varislik məktəbi gənclərlə formalaşa bilərdi. Ona görə də burada işləməyə gənclər cəlb olundu. Onlar həm kompüter, həm də xüsusi zərgərlik kurslarına göndərildilər ki, biliklərini artırsınlar. Bu gənclərdən 4-ü xarici vətəndaşdır. Onlar burada yaşamaq üçün mənzillə təmin olunublar. Ümumilikdə isə müəssisədə çalışanların hər biri qayğı ilə əhatə edilib. Belə ki, onların işə gəlib-getmələri üçün servis fəaliyyət göstərir. Nahar yeməyi müəssisə tərəfindən verilir. İş vaxtı iki dəfə çay saatı ayrılıb. Onların iş rejimi nəzərə alınaraq həm də ağartı məhsulları ilə təmin olunurlar.

Toğrul müəllim onu da qeyd edir ki, artıq müəssisədə istehsal olunan zinət əşyalarının İspaniyanın Madrid şəhərində də satışı təşkil edilib. Yaxın gələcəkdə isə məhsulların digər xarici ölkələrə eksportu nəzərdə tutulur. Həmçinin Bakı şəhərində də qızıl və gümüş məmulatlarının satışının təşkili müəyyənləşdirilir. Müəssisə rəhbəri son vaxtlar istehsalları ilə bağlı maraqlı bir faktı da bildirdi ki, bu yaxınlarda alıcıların tələbatına əsasən həm qadın, həm də kişi üçün nişan üzüklərinin istehsalı bir qədər artırılıb.

Müasir dövrümüzdə zinət əşyaları almaqda insanlar bir qədər çətinlik çəkirlər. O mənada ki, məhsulun harada, necə istehsal edildiyi, keyfiyyəti haqqında məlumatları olmur. Və ən əsası isə aldadılacaqlarından ehtiyat edirlər. Muxtar respublikamızda bu sahəyə lazımi şəkildə nəzarət olunduğundan həmin hallar olmasa da, digər qızıl bazarlarında bu, bir faktdır. İndi zinət əşyaları almaq üçün Naxçıvan ən etibarlı məkandır. “Miraj Gold” isə rəsmi fəaliyyət göstərən hüquqi şəxsdir. Bu isə o deməkdir ki, müəssisədə istehsal olunan məmulatlar keyfiyyətinə görə daha etibarlıdır.

Sonuncu: “Brend olmaq çətindir. Məncə, bunun üçün uzun bir yol gedilməlidir və hər zaman brend adı qorunmalıdır”, – fikrimi Toğrul müəllim belə təsdiqlədi: – Təbii ki, brend olmaq çətindir. Bunun üçün söhbətimizin əvvəlində də vurğuladığım kimi, iş tamamilə fərqli qurulur. Davamlı kreativlik, yeniliklər, keyfiyyətə nəzarət lazımdır ki, brend qorunub saxlanıla bilsin. Bizim bu sahədə cəmi birillik təcrübəmiz var. Amma bu bir ildə çox uğurlara nail olmuşuq. Bir qədər alıcıların qızıl bazarlarında satılan zinət əşyaları ilə bizim mağazamızda satılanları müqayisə edib qiymətləndirmələrinə. İstehsal etdiyimiz zinət əşyaları əl əməyi, göz nurudur, onlar xüsusi olaraq hazırlanır. Müəssisəmizdə çox halda



bir zinət əşyasından tək bir ədəd istehsal edilir ki, o da bir şəxsə məxsus olur. Lakin sexlərdə bir eskizdən bir istehsalda 10-dan artıq hazırlanır. Fərq bunda, bir də keyfiyyətdədir. Ümidvaram ki, yaxın gələcəkdə şəhərimizin sakinləri mağazamızdakı kolleksiyalardan daha çox yararlanıb öz zövqlərinə uyğun zinət əşyalarını ala biləcəklər.

*Bəli, zövqlər müxtəlifdir. Zinət əşyalarından istifadə edən istər qadın, istər kişi olsun, kimi böyük görüntülü, kimi isə incə olanlarına üstünlük verir. “Miraj Gold” isə bütün zövqlərin ünvanıdır. Eksklüzivliyə daha çox diqqət verən və üzərlərində daşıdıqları zinət əşyalarının tək özlərinə məxsus olması arzusu ilə xanımlarımızın, sözsüz ki, zamanzaman seçimləri “Miraggio Jewellery” brendi olacaq.*

**✍ Mətanət MƏMMƏDOVA**

## *“Dram müsabiqəsi”* keçirilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən aprel ayı ümumtəhsil müəssisələrində elan olunan “Mütaliə aylığı” çərçivəsində keçirilən silsilə tədbirlərdən biri də “Pedaqoji fikir tarixindən” və Azərbaycan yazıçılarının dram əsərlərindən seçmələrin şagirdlər tərəfindən səhnələşdirilməsi və “Dram müsabiqəsi”nin təşkili olub.

Müsabiqənin şəhər və rayon mərhələsi keçirilib, hər bir məktəb 1 dram əsəri ilə iştirak edib. 149 məktəb üzrə 946 şagirdin iştirak etdiyi şəhər və rayon mərhələsində hər rayon (şəhər) üzrə I yerin qalibi olmuş məktəbin və Təhsil Nazirliyinə birbaşa tabe məktəblərin şagirdləri muxtar respublika mərhələsində iştirak etmək hüququ qazanıblar.

Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində dram müsabiqəsinin muxtar respublika mərhələsi keçirilib. Tədbirdə çıxış edən təhsil nazirinin müavini Heyran Əhmədova bildirib ki, dram əsərlərinin səhnələşdirilməsi şagirdlərdə mütaliəyə maraq oyadılmasında, nitqin inkişafında, onların cəmiyyətdə özünü müstəqil şəkildə düzgün ifadə etməsində və istedadlı şagirdlərin üzə çıxarılmasında mühüm rol oynayır.

Müsabiqədə şagirdlər tərəfindən hazırlanmış səhnəciklər təqdim edilib. Səhnəciklər münsiflər tərəfindən qiymətləndirilib. I yerin qalibi Ordubad rayon Əndəmic kənd tam orta məktəbinin, II yerin qalibi Şərur rayon Mahmudkənd tam orta məktəbinin, III yerin qalibi isə Kəngərli rayon Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin şagirdləri olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Yaşıllıq sahələri artırılır

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 29 noyabr tarixli “Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında” Sərəncamın icrası ilə alaqədar fəaliyyət uğurla davam etdirilib. Ərazidəki təpəliklərdə 30 hektara yaxın sahədə ağac və kolların toxum və tingləri vasitəsilə əkin işləri aparılıb. Həmçinin orta dağlıq ərazidə yerli ting və toxumlardan istifadə edərək 7 hektar sahədə yaşıllıq zolağı salınıb. Bu il, ümumilikdə, 70 hektar sahədə ərazinin yerli bitkilərinin əkilməsi planlaşdırılıb.

Görülən çoxsaylı tədbirlər nəticəsində yaşıllıq əraziləri 1990-cı illə müqayisədə 1 faizdən 20 faizədək artmasına nail olunub.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhər Bulqan kənd sakini Orucov Həmzə Zeynalabdin oğlunun adına 11.03.2015-ci il tarixdə verilmiş MH-0041207 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

“Cahan İnşaat” MMC-yə məxsus 185FX252 nömrə nişanlı “YTOZL50D” markalı texnikanın texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

“Cahan İnşaat” MMC-yə məxsus 185-FX-472 nömrə nişanlı “BOB CAT” markalı yükqaldırıcının texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 283